# ŞEİRLƏR

**Vaqif Məmmədov**



1948-ci il iyunun 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində anadan olub. 25 ilə yaxın kənd məktəbində pedaqoji fəaliyyətlə məşğul olub.

Azərbaycan Jurnalistlər Birliyinin (1992), Azərbaycan Yazıçılar Birliyinin (1995), İLESAM-ın (Türkiyə, 2005) və Avrasiya Yazarlar Birliyinin (2010) üzvü, tarix üzrə fəlsəfə doktoru (2001), Əməkdar mədəniyyət işçisi (2005), "Qızıl qələm" mükafatı laureatıdır.

1970-ci ildən bədii yazıları mətbuatda dərc edilir. Otuza yaxın bədii-publisistik kitabın müəllifidir.

1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvü olub.

1998-ci ildən Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının direktorudur.

*vaqif_memmedov@mail.ru ; www.vaqif-memmedov.com*

## *ŞƏHİD RUHU*

Şəhid! - Qərinələr saxlar bu səsi,
Qanı torpağımız, daşımız üstə.
Şəhidlər tanrının ulu bəndəsi,
Ruhu da hər zaman başımız üstə.
Tanrı dərgahıyla hər an səsləşir,
O, cənnət bağının bar çiçəyidir.
Öz qısa ömrüylə müqəddəsləşir,
Şəhid insanlığın qar çiçəyidir.
Hansı torpağın ki, şəhidi varsa,
Orda daş üstünə daş qoymaq olar.
Qiblənin yolları boransa, qarsa,
Şəhid məzarına baş qoymaq olar.
Şəhidlik adında ünvanımız çox,
Şəhidin ruhu da bakirə, təmiz.
Zülmətdən işığa addım-addım yox,
Sanki, şəhid-şəhid yol gedirik biz.
Şəhidlər dünyadan cavan köçsə də,
Ömründə illəri daşıyanlardır.
Əsrlər dolanıb, zaman keçsə də
Şəhidlər əbədi yaşayanlardır.
Şəhid! - Qərinələr saxlar bu səsi,
Qanı torpağımız, daşımız üstə.
Şəhidlər tanrının ulu bəndəsi,
Ruhu da hər zaman başımız üstə.

## *HƏMİN DOSTLUQ O İLLƏRDƏ QALIBDI...*

Bir baxmadın amana sən, aha sən,
Ucuz aldın malı, satdın baha sən.
Həmin dostum deyilsən ki, daha sən,
Həmin dostluq o illərdə qalıbdı.
Susqun idi tufan onda, sel onda,
Yam-yaşıldı çəmən onda, çöl onda.
Rəngli idi aylar onda, il onda,
Həmin dostluq o illərdə qalıbdı.
İtirmişəm çığırını, izini,
Eşitmirəm baldan şirin sözünü,
Bulud alıb o günəşin üzünü,
Həmin dostluq o illərdə qalıbdı.
Karvan getmir, dəvə yükün əyməyir,
O təbəssüm heç gözümə dəyməyir,
Ağacdələn o qapını döyməyir...
Həmin dostluq o illərdə qalıbdı.
Vəzifən var, imkanın var əlində,
Kinayəli, acı sözün dilində...
Ağarıbdı şəvə kimi telin də,
Həmin dostluq o illərdə qalıbdı.

## *NƏSİHƏT*

Ümmana yol alan gəmi kimiyəm,
Bir qərib nisgili, qəmi kimiyəm.
Gördün suya həsrət zəmi kimiyəm,
Yağış ol, üstümə yağ, yağa bilsən.
Torpağım talanıb, dərdi qalıbdı,
Namərdi gəlibdi, mərdi qalıbdı.
Baxdın «lələ köçüb, yurdu qalıbdı»...
Gözünü yollardan yığ, yığa bilsən.
Xırmanım buğdasız, dənsiz olanda,
Dərələr dumansız, çənsiz olanda,
Məni itirəndə, mənsiz olanda
Həsrəti içində boğ, boğa bilsən.
Dəniz kənarında tora həsrətəm,
Dağın ətəyində qara həsrətəm.
Qaranlıq gecədə nura həsrətəm,
Ay kimi üstümə doğ, doğa bilsən.
Qara ürəyimdə, ağ ürəyimdə
Dərə ürəyimdə, dağ ürəyimdə.
Qüssəli, sevincli çağ ürəyimdə,
Sən də ürəyimə sığ, sığa bilsən.

## *ŞİRİN YUXU*

Bu necə yuxuydu gördüm, İlahi?
Nə don biçilmişdi əynimə mənim?
Bu necə yuxuydu gördüm, İlahi?
Mələkmi qonmuşdu çiynimə mənim?
Bu işıq haradan düşdü üstümə,
Nə xeyir əməli yazmışdım dünən?
Kimsə qızındımı görən istimə,
Bəlkə də yolumu azmışdım dünən?
Həm yaxın, həm uzaq olan nəfəsin,
Əfsunu özümdən almışdı məni.
Ruhumu oxşayan o zərif səsin
Qüdrəti tilsimə salmışdı məni.
Çox da qürurluyudum, inadlı idim
Sanki yol gedirdim səmənd atında.
Elə bil o anda qanadlı idim,
Uçurdum göylərin yeddi qatında.
Bu nağıl haradan yuxuma girdi?
Məni kim izləyib, güdəcək görən?
Bəlkə bir yoldu bu, İlahi verdi,
Bu yol hara kimi gedəcək görən?

## QƏRİBƏSƏN

Sənin xasiyyətin qəribələşib,
Soyuqluq yaranıb necə də səndə...
Sənin xasiyyətin qəribələşib,
Gündüz də səndədir, gecə də səndə...
Səsinin dəyişir bəzən ahəngi,
Hərdən elə bil ki, baharsan, yazsan.
Dünyanı dərk edib, duyansan sən ki,...
Hicran əzabını niyə duymazsan?..
Vaxt olur dönürsən uzağa, yada,
Olur hərəkətin, sözün qəribə.
Bəzən bir baxışla salırsan oda,
Baxışın qəribə, özün qəribə.
Qəribə gedişi var bu dünyanın,
Açılan hər çiçək saralır, solur.
Bəzən hər saatın, bəzən hər anın
Hökmü də səninək qəribə olur...
Neçə qəribəlik ad-sanımızda,
Ömür ağacında dən də qəribə.
Təzadlar dolanır dörd yanımızda,
Dünya da qəribə, sən də qəribə...
Sənin xasiyyətin qəribələşib,
Soyuqluq yaranıb necə də səndə...
Sənin xasiyyətin qəribələşib,
Gündüz də səndədir, gecə də səndə...

## İLLƏR ARXADA QALDI...

Nə daha tərifə ehtiyacım var,
Nə də səni tərif həvəsindəyəm.
Ömurdə sən adda qizil tacım var,
Bilirəm qəlbində, həvəsindəyəm.
Neçə xatirə var hər anımizda,
Yaxsını, yamanı duyub gəlmisik,
Nəvələr dolanır dörd yanımızda,
İlləri arxada qoyub gəlmisik.
Bir vaxt ağaçdələn doydu qapını,
Taleyə, qismətə yazıldı o səs.
Oxuduq taleyin o kitabını,
Hələ həmin sevgi, hələ o həvəs...
Urəkdə cox sirlər dasıdıq ki, biz,
Qosa ömrümüzün adında qalsın.
Elə bir qisməti yasadıq ki biz,
Təkcə ikimizin yadında qalsın...
Yaxsi ki, ulduzlar belə görüsdü,
Yaxsi ki, bu sirri belə dasıdıq.
Yaxsi ki, qismətə bu tale dusdu,
Yaxsi ki bir ömru belə yasadıq.

## SƏNİN SƏHVLƏRİN

Buymuş etibarın, bu imiş vəfan,
Neçə körpülərin qırdın tağını.
Verdiyin əzablar, ağrılar, cəfan
Ayırdı nehrəndə şorla yağını.
Varmış vəzifənin halı-mərəzi,
Rütbəni naqisə pay elədin sən.
İtdi gözlərində mizan-tərəzi,
Tərlanı qarğaya tay elədin sən.
Ətrafın itirdi şan-şərəfin də,
Daldada qab dibi güddü, yaladı.
Özün şir olsan da, dörd tərəfində
Çaqqallar, tülkülər meydan suladı...
Süni yağışlar da yağdırıb hərdən,
Əritdin zirvənin təmiz qarını.
Aslanı tülküyə boğdurub hərdən,
Hamıya göstərdin etibarını.
Duyan gözü bağlı ozana döndü,
Oğrular qapıdan tərs keçən yerdə.
Yam-yaşıl bağça da xəzana döndü,
Əxlaqsız-əxlaqdan dərs keçən yerdə...
Əyrini üzdürdün süd gölündə sən,
Düzlərin yolunu daşa çıxardın.
İnsafı itirdin pay böləndə sən,
Əyyaşı hamıdan başa çıxardın.
Elə yol tutubsan, elə gedirsən,
Vicdanın dil açsa hey danlar səni.
Son vaxtlar yoluna çöküb duman-çən,
İdarə eyləir şeytanlar səni.
Mən də çox bələdəm dumana-çənə,
Bilirəm haqsızlıq, cəfa nə imiş.
Sular durulanda çatacaq sənə,
Etibar nə imiş, vəfa nə imiş...